# Köhnə və yeni dövlətlər:

## dəyişən paradiqmalar və Dağlıq Qarabağda sülhə aparan mürəkkəb yol

Vartan Oskanyan



*Ermənistan prezidenti Robert Koçaryan.*

*Mənbə: Röyter/Mayk Siqar*

Vartan Oskanyan Harvard Universitetinin və Fletçer Hüquq və Diplomatiya Ali Məktəbinin məzunudur. 1998-ci ildən Ermənistan Respublikasının xarici işlər naziri vəzifəsində çalışır.

Son on il ərzində Dağlıq Qarabağ üzrə danışıqların məzmunu və vurğusu qəti surətdə dəyişmişdir. Prosesi bir neçə mərhələyə bölsək, aydın olar ki, hazırkı vəziyyətdə siyasi iradə olarsa, biz aramızda olan ixtilafların çözülməsi yolunda daha da məqsədyönlü şəkildə addımlaya bilərik.

1988-ci ildə ermənilərin məskunlaşdığı Dağlıq Qarabağ bölgəsinin əhalisi bu bölgənin statusunu müəyyən etmək çıxışları ilə dinc nümayişlər keçirirdi. Azərbaycan bu nümayişlərə qarşı güc tətbiq etməklə münaqişənin başlanğıcını qoydu. Davam edən hərbi əməliyyatlar zamanı hətta keçmiş sovet məkanı daxilində xaotik, nizamsız və impulsiv vasitəçilik cəhdləri görülmüşdü. 1992-ci ildə Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi münaqişənin nizamlanması prosesinə qoşulduqdan sonra, proses beynəlxalq səviyyəyə keçdi. Lakin, biz hərbi əməliyyatların sona çatdığını güman edən zaman, Azərbaycan 1993-cü ilin dekabrında daha bir hücuma keçdi. Qarabağ erməniləri bu hücumu dəf edərək hərbi təcavüzün təkrarlanmasına yol verməmək üçün bəzi ətraf ərazilərin üzərində nəzarəti ələ keçirdilər. 1994-cü ilin mayında atəşkəs haqqında razılaşma əldə edildi. Artıq adı dəyişmiş Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) elə həmin ilin dekabrında keçirilmiş Budapeşt sammitində ATƏT müxtəlif danışıqlar müstəvilərini birləşdirdi. Beləliklə, hərbi əməliyyatların bitməsi bu günə kimi davam edən ciddi danışıqların mexanizminin yaradılması ilə üst-üstə düşdü.

İllər ötdükcə dünyanın müxtəlif bölgələrində baş verən hadisələr və öz müqəddəratını təyin etmə prosesləri Qarabağ münaqişəsinin kökündə duran məsələlərin beynəlxalq ictimaiyyət tərəfindən dərk edilməsində və həmçinin danışıqların prosesi və məzmununda fundamental dəyişikliklərə səbəb oldu. Köhnə və yeni dövlətlərin arasında olan münasibətlər bu gün transformasiya yaşamaqdadır. Referendum nəticəsində Şərqi Timorun müstəqillik elan etməsi; Sudanda vilayətlərin birində referendum əsasında onilliklərlə davam edən münaqişənin dayandırılması haqqında sazişin bağlanması günümüzün reallıqlarıdır. Kosovoda referendumun keçirilməsinin mümkünlüyü ciddiyyətlə müzakirə olunur. Politoloqlar, hüquqşünaslar və alimlər millətlərin öz müqəddəratını təyin etmə hüququnun ayrı-ayrı hallarda tanınmasını getdikcə mümkün və real hesab edirlər.

Öz müqəddəratını təyin etmə uğrunda aparılan hər bir mübarizə konkret tarixi və hüquqi kontekstin və bölgədəki vəziyyətin prizmasından qiymətləndirilməlidir. Xalqların öz müqəddəratını təyin etmək istəkləri ilə bağlı münaqişələr dörd kateqoriyaya bölünür. Bu təsnifat dövlətin öz ərazisi üzərində həyata keçirdiyi nəzarətin dərəcəsindən (öz müqəddəratını təyin etməyə can atanların yaşadığı bölgə də bura daxildir) və

təcrübədə artıq əldə edilmiş özünüidarənin dərəcəsindən asılıdır. Birinci kateqoriyaya aid olan münaqişələrdə öz müqəddəratını təyin etmək istəyənlər ölkə tərkibində qalıb-qalmamağa səsvermə yolu ilə qərar verirlər. Bu baxımdan yeganə misal Kvebeki gətirmək olar ki, Kanadanın tərkibində qalmağa səs vermişdir. Bugünkü separatist hərəkatların böyük əksəriyyəti ikinci kateqoriyaya aiddir: əhali öz müqəddəratını heç bir yolla təyin edə bilmir, mübahisəli ərazi isə, dövlətin tam nəzarəti altındadır. Üçüncü kateqoriyaya daxil olan misallarda dövlət öz müqəddəratını təyin etmək arzusunda olanlara tam nəzarət edə bilmir, bu əhali də öz növbəsində ərazilərini öz davamlı nəzarəti altına keçirmək üçün kifayət qədər güclü deyil.

Dağlıq Qarabağ tamamilə fərqli, dördüncü kateqoriyaya aiddir. Son 15 il ərzində tam suverenliyin bütün atributlarına nail olan Qarabağ üzərində Azərbaycan qətiyyən nəzarətə malik deyil. Bu kontekstdə Qarabağ əhalisini insan hüquqlarının təminatı və iqtisadi faydalar haqqında vədlərlə Azərbaycanın yurisdiksiyasını qəbul etməyə inandırmaq cəhdləri heç bir fayda verməyəcək. Bölgədəki özünüidarənin davamlılığı və dərinliyindən savayı, Dağlıq Qarabağın vəziyyəti digər əlavə məqamlarla da gücləndirilir. Birincisi, Dağlıq Qarabağ o zamankı qanunvericiliyə uyğun olaraq, tam qanuni surətdə ayrılmışdır. İkincisi, sözü gedən ərazi heç vaxt müstəqil Azərbaycanın yurisdiksiyasında olmayıb.

Üçüncüsü, vətəndaşları hesab etdiyi insanlara qarşı zor tətbiq etməklə, Azərbaycan bu insanlar üzərində hər hansı himayə hüququnu mənəvi cəhətdən itirib. Və nəhayət, Dağlıq Qarabağın təcrübədə təsdiq etdiyi seçkilər keçirmək, əhaliyə rəhbərlik etmək, sərhədlərini müdafiə etmək və xarici siyasəti həyata keçirmək bacarığı siyasi həqiqətdir.

Azərbaycan hökuməti üçün bu danılmaz faktlarla barışmaq çətindir. Bunun əvəzinə o, mövqelərini yeni ehtimallar və əfsanələr əsasında qurur. İlk öncə, Azərbaycan hökuməti özünü inandırıb ki, münaqişənin kökündə Azərbaycan əraziləri durur. Lakin münaqişənin əvvəlində Dağlıq Qarabağdan kənarda ermənilər heç bir əraziyə nəzarət etmirdi. Bu ərazilər yalnız Dağlıq Qarabağın statusu barəsində meydana çıxmış mübahisəyə görə deyil, həmçinin Azərbaycanın erməniləri Dağlıq Qarabağdan tamamilə təmizləmək cəhdlərinin nəticəsində ermənilərin nəzarəti altına keçmişdir.

İkincisi, Azərbaycan rəhbərliyi özünü inandırmağa çalışır ki, əgər danışıqlar vasitəsilə öz tələblərini maksimal şəkildə ödəyə bilməsə, hər an güc yoluna əl ata bilər. Məgər aydın deyil ki, münaqişənin güc yolu ilə qəti surətdə həlli mümkün deyil? Öz evlərini müdafiə edən Dağlıq Qarabağ sakinləri üzərində hərbi qələbə çalmaq üçün adi silahlar bəs etməyəcək. Yalnız Qarabağda etnik təmizləmə aparıb, oradan bütün erməniləri çıxardıqdan sonra Azərbaycan qalib gələ bilər.

Üçüncüsü, Azərbaycan tərəfi hesab edir ki, vaxt onların tərəfindədir. Onlar inanırlar ki, neft satışından gələn gəlirlərdən istifadə edib ölkənin hərbi potensialını artıracaqlar. Bu yanlış fikirdir, çünki vaxtın kimin xeyrinə işləməsinə heç kim zəmanət verə bilməz. Bu gün beynəlxalq aləmdəki tendensiyalar öz müqəddəratını təyin etmə hüququnun gücləndirilməsinə yönəlib. Dağlıq Qarabağ öz faktiki müstəqilliyini nə qədər çox saxlasa, bir o qədər də tarixi prosesi geriyə qaytarmaq çətin olacaq.

Dördüncüsü, Azərbaycan hakimiyyəti düşünür ki, ətraf aləmdən təcrid olunmuş Ermənistan öz mövqeyini iqtisadi cəhətdən qoruya bilməyəcək və gec-tez ciddi güzəştlərə getməyə məcbur olacaq. Bu yanlış ehtimaldır, çünki birinci növbədə Dağlıq Qarabağın əhalisi hər hansı güzəştlərə özü razılıq verməlidir. Bundan əlavə, həm Ermənistan, həm də Dağlıq Qarabağ artıq iqtisadi böhrandan çıxıb iqtisadi artımı yaşayırlar.

Və nəhayət, Azərbaycan tərəfi özünü inandırıb ki, Ermənistanı işğalçı kimi dünyaya təqdim etməklə, beynəlxalq qətnamələrdən istifadə edib erməniləri təslim olmağa vadar edəcək. Lakin ermənilər dəfələrlə nümayiş ediblər ki, Azərbaycan öz təcavüzünün qurbanıdır. Dağlıq Qarabağ ətrafındakı ərazilər onun təhlükəsiz gələcəyini təmin etmək üçün qaytarıla bilər, lakin əgər həmin əraziləri saxlamaqla bu məqsədə daha effektiv surətdə nail olmaq mümkündürsə, ermənilər bu əraziləri saxlayacaq. Əsas məqsəd ərazi genişlənməsi deyil, öz müqəddəratını təyin etmək hüququnun və təhlükəsizliyin təmin edilməsidir.

Bu münaqişənin həllinə nə hərbi yolla, nə beynəlxalq qətnamələrin qəbul edilməsi ilə, nə də kənardan zorla yeridilmiş başqa vasitə ilə nail olmaq mümkündür. Düzgün çözümün tapılmasına aparan yeganə yol siyasi iradə göstərib həqiqəti əks etdirən mövqe seçməkdən keçir. Ermənilər öz əvvəlki tələblərindən geri çəkilmirlər: Dağlıq Qarabağla Azərbaycanın arasında heç bir şaquli münasibətlər olmamalı, Dağlıq Qarabağ Ermənistanla coğrafi əlaqəyə malik olmalı, Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyi təmin edilməlidir.

Biz hesab edirik ki, Dağlıq Qarabağın öz müqəddəratını təyin etmək hüququnun təsdiq edilməsi və bu hüququn beynəlxalq səviyyədə tanınması nizamlama prosesinin təməlində durmalıdır. Bu faktın Azərbaycan tərəfindən qəbul edilməsi və sazişlə bərkidilməsi münaqişənin çözülməsi və onun nəticələrinin aradan qaldırılması yolunda əngəlləri götürər.